# Yeni təhsil ocaqları - gələcəyin qapısı

Cəbhə xəttində yaşayan insanlara dövlət tərəfindən göstərilən diqqət və qayğı davamlı xarakter alıb, Ağdam rayonunda mütəşəkkillik, təşəbbüskarlıq, sabitlik hökm sürür. Qeyd etmək yerinə düşər ki, son bir neçə ay ərzində rayonun həyatında böyük bir canlanma var. Daxili imkanlardan səmərəli istifadə, səliqə-sahmanın yaradılması, yeni və müasir binaların tikintisi diqqəti daha çox cəlb edir.

Rayonun 122 nömrəli köçkün tam orta məktəbi üçün Bərdə rayonu ərazisində quraşdırılan modul tipli bina bu günlərdə istifadəyə verilib.

Bu münasibətlə keçirilən mərasimdə rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri, müəllim, şagird və valideynlər iştirak ediblər. Rayon icra hakimiyyəti başçısının müavini Ağa Zeynalov, təhsil şöbəsinin müdiri Mətanət Misirxanova, Ağsaqqallar Şurasının sədri Əvəz Mikayılov müəllim, şagird və valideynləri binanın istifadəyə verilməsi münasibətilə təbrik edib, təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısından, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıblar.

Bildirilib ki, son illərdə respublikamızda ənənəvi məktəb binalarının inşası ilə yanaşı, modul tipli məktəblərin quraşdırılması da həyata keçirilir. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının



şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin tikintisində əsasən yerli istehsal məhsullarından istifadə edilir.

Tədbirdə söz alan pedaqoji kollektivin nümayəndələri və şagirdlər dövlətimizin başçısına minnətdarlıqlarını bildirib, yüksək qayğıya əməli işlə cavab verəcəklərini söyləyiblər.

Çıxışlardan sonra tədbir iştirakçıları məktəbdə yaradılan şəraitlə tanış olublar. 96 şagird yerlik məktəb 11 sinif otağı, müəllimlər otağı, kitabxana və sanitar qovşaqdan ibarətdir. Məktəbə su, kanalizasiya xətləri çəkilib, istilik sistemi, nəzarət kamerası quraşdırılıb, həyətdə abadlıq işləri aparılıb. Məktəb avadanlıq və inventarla təmin edilib.

Ağdam rayonunda daha bir modul tipli məktəb binası tezliklə müəllim və şagirdlərin istifadəsinə veriləcək. Təzəkənd kənd tam orta məktəbi üçün quraşdırılan 80 şagird yerlik binada son tamamlama işləri aparılır.

İş icraçısı Taryel Ağamirzəyev bildirib ki, məktəb binası 8 sinif otağı, müəllimlər otağı, kitabxana və sanitar qovşaqdan ibarətdir. Binaya istilik sistemi, qaz və su xətləri çəkilib, həyətində su çəni qoyulub, çirkab su anbarı tikilib, yerə asfalt örtük döşənib. Məktəbin inventar və avadanlıqları da gətirilib. Hazırda həyətdə abadlıq işləri aparılır, hasarlar çəkilir.

Yaxın günlərdə cəbhə xəttində yerləşən kənddə yeni məktəbin zəngi çalınacaq, şagirdlər müasir sinif otaqlarında təhsil alacaqlar.

**Salman ALIOĞLU,**
**"Respublika".**